


**Müasir Azərbaycan dövlətinin inkişafı, müstəqil dövlət kimi formalaşması və beynəlxalq aləmə inteqrasiyası ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz töhfəsini vermiş, eyni zamanda, inkişaf strategiyasını müəyyənləşdirmişdir.**

***Azərbaycan işğalla heç vaxt barışmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcək. Bunun üçün güclü ordu yaratmalı idik. Bu gün tam əminliklə deyə bilərəm ki, buna nail ola bilmişik. Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti,***
***Silahlı Qüvvələrin Ali Baş Komandanı***

# Silahlı Qüvvələrimiz işğal altındakı ərazilərimizi azad etməyə hazırdır



Xalqın təkidli xahişləri ilə hakimiyyətə qayıdışından sonra ordu quruculuğunu prioritet vəzifə kimi qarşıya qoyan Heydər Əliyev bu istiqamətdə mühüm addımlar atdı. Qeyri-qanuni silahlı qruplaşmalar ləğv edildi, vahid komandanlıq yaradıldı və ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara start verildi. 1994-cü il mayın 12-də atəşkəs haqqında müqavilə imzalandıqdan sonra Azərbaycanda ordu quruculuğu prosesi daha da sürətləndi və Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılması, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılması, döyüş və hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində mühüm tədbirlər həyata keçirildi.

Ulu öndər hərbi hissələri özbaşına tərk etmiş əsgərlərin valideynlərinə müraciət edərək onları əfv etdiyini bildirdi və gənc əsgərləri hərbi xidmətlərini davam etdirməyə çağırdı. Bundan sonra fərariliyə birdəfəlik son qoyuldu.

Qısa müddətdə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı getdikcə əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı və ən əsası Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı.

Heydər Əliyev Azərbaycan Ordusunun təşkilatlanmasını, böyük qüvvəyə çevrilməsini dövlət siyasətinin prioriteti hesab edirdi: "1993-cü ilin sonlarından başlayaraq, həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Hazırda Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur. Milli Ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır".

Azərbaycan Ordusunun güclənməsinin və təşkilatlanmasının ən başlıca səbəbi ordu quruculuğuna Heydər Əliyevin rəhbərlik etməsi idi. Müstəqilliyimizə, milli maraqlarımıza dərindən bağlı olan ulu öndər illər boyu qazandığı dövlətçilik təcrübəsi, siyasi uzaqgörənliyi və dövlət idarəçiliyində zəngin təcrübəsi ilə ordu quruculuğuna xüsusi önəm verdi.

Ölkədə aparılan siyasi, iqtisadi, mədəni, hüquqi islahatlar vəziyyəti getdikcə sabitləşdirdi və Azərbaycanda 1993-cü ildən inkişaf və tərəqqi yolunun əsası qoyuldu. 1993-2003-cü illər sabitlik və inkişaf illəri kimi tariximizdə qalmışdır. Həmin siyasət bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

2003-cü ildən başlayaraq, bütün istiqamətlər üzrə işlər sürətlə gedir, bir-birinin ardınca islahatlar aparılır və demokratik proseslərin inkişafına xüsusi önəm verilir. Ordu quruculuğu sahəsində aparılan islahatlar xüsusi qeyd edilməlidir. Bu da təbiidir. Ərazisinin 20 faizi işğal altında olan bir ölkədə ordu quruculuğunun inkişafı prioritet məsələdir. Biz müharibə şəraitində yaşayırıq. Müharibə isə hələ bitməyib. Ona görə də əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir.

***(ardı 2-ci səhifədə)***

# Silahlı Qüvvələrimiz işğal altındakı ərazilərimizi azad etməyə hazırdır

*(əvvəli 1-ci səhifədə)*

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dəfələrlə bəyan edib ki, ordu quruculuğu dövlətin qarşıya qoyduğu ən zəruri sahələrdəndir. Bu məsələ daim diqqət mərkəzindədir: “Son illər ərzində ən müasir texnika və silahlar alınıbdır. Onların arasında yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri – bütün bunlar bizim hərbi gücümüzü artırır. Deyə bilərəm ki, ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir”.

Dövlətimizin başçısı daha sonra bildirib ki,bundan sonra da ölkəmizə ən müasir silahlar və texnika gətiriləcəkdir. Bu gün mövcud olan texnika və silahlar imkan verir ki, biz işğalçıların istənilən hərbi hədəfini yüksək dəqiqlik və böyük dağıdıcı qüvvə ilə darmadağın edə bilək. Əlbəttə, hər bir ölkənin, o cümlədən müharibə şəraitində yaşayan ölkələrin gücünü, ilk növbədə, onun hərbi qüdrəti müəyyən edir.

Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində 13 il əvvəl yaradılmış Azərbaycan Müdafiə Sənayesi Nazirliyi ölkəmizi silah-sursat istehsal və ixrac edən ölkəyə çevirdi. İlk illər bənzəri olmayan ilk milli “İstiqlal” snayper tüfənginin yaradılması və istehsalı təmin edilmiş, “İstiqlal-2”, “İstiqlal-4”, “İstiqlal-1T”, “Şimşək-9” və digər müdafiə təyinatlı silahlar sınaqdan keçirilmişdir. Bundan sonra ölkəmizdə istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını daha da gücləndirdi. Son illər ərzində ölkəmizdə 20-dən çox hərbi zavod yaradılmış və bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur. Qürurverici haldır ki, eyni zamanda, biz artıq hərbi məhsullarımızı ixrac etməyə də başlamışıq.

Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində cəmiyyət həyatının bütün sahələrində, o cümlədən ordu quruculuğunda son illərdə mühüm nailiyyətlər əldə olunması ölkəmizdə və regionda ilk dəfə keçirilən Beynəlxalq müdafiə sənayesi – “ADEX 2014” sərgisi ilə özünü bir daha büruzə verdi. Görülən işlərin nəticəsidir ki, Müdafiə Sənayesi Nazirliyi aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə əməkdaşlıq edir. 2009-cu ildən başlayaraq, nazirliyin müəssisələrində istehsal olunan məhsullar xaricdə keçirilən beynəlxalq müdafiə sənayesi sərgilərində nümayiş etdirilir. Bu sərgilərdə Azərbaycan istehsalı olan məhsullar böyük maraqla qarşılanır. Onu da qeyd edək ki, respublikamız bu günədək 15-dən artıq beynəlxalq sərgidə iştirak edib.

Bu sərgi müasir silah və texnikanın, habelə milli müdafiə sahəsində Azərbaycanın gücünün və qüdrətinin böyük nümayişinə çevrilib. Sərginin keçirilməsi ideyası son illərdə müdafiə sənayesi sahəsində əldə olunan uğurlarla sıx bağlıdır. Təsadüfi deyil ki, bütün sənaye sahələrində müşahidə olunan inkişaf sayəsində Azərbaycan həm regional, həm də beynəlxalq bazarlarda aparıcı fiqur və strateji tərəfdaşa çevrilib.

Ötən il Azərbaycan Parisdə keçirilən "Eurosatory 2018" hərbi sərgisində Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan 270 adda məhsul təqdim etmişdir. Bu sərgidə dünyanın 63 ölkəsindən 1700-dən çox şirkət iştirak etmişdir.

2016-cı ilin Aprel döyüşləri də təsdiqlədi ki, ordumuzun döyüş qabiliyyəti getdikcə artır. İşğal altında olan ərazilərimizin azad edilməsi üçün güclü və nizami ordumuz var. Cəmi dörd gün davam edən döyüşlərdə Ermənistan ordusu darmadağın edildi və düşmən silah-sursatı atıb qaçdı.

Uğurlu əks-hücum əməliyyatı nəticəsində 23 il işğal altına olan torpaqlarımızın bir hissəsi – Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının iki min hektar ərazisi düşmən tapdağından təmizləndi. Bu gün həmin ərazilərə Azərbaycan Ordusu nəzarət edir. Ermənilərin torpaqlarımızda, işğal edilmiş ərazilərdə qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət göstərir. Strareji əhəmiyyət kəsb edən Lələtəpədə, Ağdərə dağlarında bayrağımız dalğalanır. Srateji yüksəklikləri əldə etmək ordumuzun düşmən üzərində böyük üstünlüyüdür.

2018-cı il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikasında baş vermiş Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında hərbi münaqişə zamanı Əlahiddə Ümumqoşun Ordusunun əks-həmləsi nəticəsində Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya və Qaraqaya dağları azad olundu, Dərələyəz mahalının Arpa kəndi də Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Döyüşlər nəticəsində 11 min hektarlıq ərazi azad edildi. Bu əməliyyat Silahlı Qüvvələrimizə İrəvan – Yeğeqnadzor – Gorus – Laçın – Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verib.

Göründüyü kimi, Azərbaycan Ordusu işğalçını cəzasız qoymadı, öz gücünü göstərdi, onlara layiqli cavab verdi, yerinə oturtdu. Prezident, Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev ordumuzun bu qəhrəmanlığını çox yüksək qiymətləndirdi: “Azərbaycan əsgəri, zabiti, generalı – Azərbaycan Ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərmişdir. Bir daha göstərmişdir ki, Azərbaycan xalqı bu işğalla barışmayacaq. Bir daha göstərmişdir ki, Ermənistan tərəfindən onların ordusu ilə bağlı uzun illər ərzində yayılan nağıllar mif idi. Biz bu mifi darmadağın etdik. Biz onların illər boyu yaratdıqları dırnaqarası möhkəm müdafiə xəttini bir neçə gün ərzində yardıq, məhv etdik”.

Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə davam edir. Hazırda Silahlı Qüvvələrimizdə çox yüksək vətənpərvərlik ruhu var. Ordumuzun maddi-texniki bazası daha da möhkəmləndirilir, ən müasir texnika, silah-sursat alınır. Son illər keçirilmiş iki hərbi parad bizim gücümüzü bütün dünyaya göstərdi. Bu gün ordumuz texniki təchizat baxımından dünya miqyasında seçilən ordular sırasındadır. Əlbəttə ki, bizim güclü hərbi potensialımız Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas amildir. Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır və buna qadirdir.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2019.- 5 iyul.- S.1;2.